**Əməkdaşlıq fəaliyyətləri**

- Agentliyin nümayəndəsi 2025-ci il 29-30 aprel tarixlərində Əl-Küveyt şəhərində keçirilmiş “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiya”nın 3-cü iclasında iştirak etmişdir. 2025-ci il 29 aprel tarixində keçirilmiş ekspert görüşü çərçivəsində Küveyt Dövlətinin Qida və Qidalanma üzrə Dövlət İdarəsinin nümayəndələri ilə görüş keçirilmiş, Agentliyin fəaliyyət istiqamətləri və funksiyaları, habelə əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat təqdim edilmişdir. Görüş çərçivəsində həmçinin gələcək əməkdaşlıq imkanları nəzərdən keçirilmiş və razılaşdırılmışdır.
- 2022-ci il 3 fevral və 2023-cü il 24 yanvar tarixlərində AQTA sədri Qoşqar Təhməzli ilə Küveyt Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Abdullah Mohamed Abdullah Almauidi arasında görüşlər keçirilib. Görüşlər zamanı iki ölkə arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.
- İki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Agentlik tərəfindən hazırlanaraq təqdim olunmuş “Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş” layihəsinin razılaşdırılması üzrə işlər davam etdirilir.